# Xalq öz Prezidentinə böyük inam və etimad göstərir



*İctimai rəy hər zaman sosiumda əhəmiyyətli rol oynamışdır. Müasir dövrdə bu, nəinki müxtəlif ictimai institutlar tərəfindən təsir obyektidir, həm də sosial dəyişikliklərin və transformasiyaların əsas amilidir. Məhz ictimai rəy sayəsində cəmiyyətin həyatında baş verən dəyişiklikləri qiymətləndirə bilirik. Bu baxımdan, Sosial Tədqiqatlar Mərkəzinin (STM) keçirdiyi son ictimai sorğu dövlət və cəmiyyətin həyatında baş verən dəyişiklikləri, müşahidə edilən tendensiyaları, yeni yanaşmaları, cəmiyyətdəki dinamikanı öyrənmək nöqteyi-nəzərindən əlverişli imkan yaradır. Sorğudan məlum olur ki, vətəndaşların böyük əksəriyyətinin Azərbaycan Prezidenti İlham Əliyevə inam və etibarı böyükdür və bu, ölkədə əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır.*

Heç kimə sirr deyil ki, dövlət idarəçiliyi hüquqa əsaslanmadan mümkün olmadığı kimi, ictimai idarəetmə də ictimai rəyi nəzərə almadan mümkün deyildir. Məhz ictimai rəy sayəsində vətəndaşların davranışının demokratik sosial normaları müəyyənləşdirilir və təmin olunur, münasibətlərin tənzimlənməsində inandırma metodunun tətbiqi həyata keçirilir. Bu baxımdan, demokratik cəmiyyətin rəyi ancaq informasiya növü kimi səciyyələnmir, o eləcə də vətəndaşlar tərəfindən sosial idarəetmə funksiyalarının həyata keçirilməsinin çox əhəmiyyətli vasitəsidir. Bu mənada, STM-in son hesabatı dövlət və cəmiyyət həyatında baş verən dəyişiklikləri, müşahidə edilən tendensiyaları, yeni yanaşmaları, cəmiyyətdəki dinamikanı öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, STM "İnam indeksi" nəşrinin xüsusi buraxılışında Prezident İlham Əliyevin fəaliyyətinin ictimai qiymətləndirilməsini həyata keçirir və ölkə başçısının fəaliyyəti, həyata keçirdiyi genişmiqyaslı iqtisadi-sosial və xarici siyasət kursunun milli həyatımızdakı yeri, eləcə də qarşıya qoyulan hədəflərə dair elmi təhlillər aparır. Qeyd etmək lazımdır ki, "İnam indeksi" nəşrinin üçüncü buraxılışı Azərbaycan Prezidentinin ilin ikinci rübündəki fəaliyyətinə həsr edilmişdir.

Əlbəttə, ictimai rəyin ən geniş yayılan, siyasət və hakimiyyət problemlərinə toxunan funksiyası qiymətləndirmə funksiyasıdır. Bu funksiya rəsmi hakimiyyət təsisatlarının və onların liderlərinin fəaliyyəti, siyasi hadisələr, cəmiyyətdə təşəkkül tapan vəziyyətin xarakteri ilə və s. haqqında qiymətləndirici mülahizələri vasitəsilə əks etdirilir. Qiymətləndirmə funksiyası mütəşəkkil formada öncə, ictimai rəy sorğusu yolu ilə müxtəlif ictimai təşkilatlar, partiyalar, hərəkatlar, qeyri-dövlət təşkilatları vasitəsilə üzə çıxarılır. Azərbaycanda ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxs STM-nin son hesabatı göstərir ki, ötən 5 ayda dünyada hökm sürən koronavirus pandemiyasına qarşı mübarizədə siyasi liderlik, dövlətin potensial resurs, güc və imkanlarını səfərbər etmək bacarığı, ictimai inam və etimadın qorunub saxlanılması, milli birliyin təmin olunmasının başlıca şərtinə çevrilmişdir. Bununla yanaşı, STM "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda ictimai rəy sorğusu əsasında böyük tədqiqat işi hazırlamışdır. İctimai rəyə əsaslanan analitik hesabatda, pandemiyanın ölkədəki makroiqtisadi sabitliyə, məşğulluğa və sahibkarlığa mənfi təsirini azaltmaq üçün yaxın gələcəkdə dövlət tərəfindən həyata keçirilən təcili sosial dəstək tədbirlərinə münasibət qiymətləndirilir.

STM İdarə Heyətinin sədri Zahid Oruc bildirmişdir ki, Prezident İlham Əliyevə inam və etibar əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır. Onun sözlərinə görə, ötən aylar göstərdi ki, ölkə başçıları pandemiya təhlükəsinə müxtəlif vaxtlarda və formalarda reaksiya verməklə həm tarixi siyasi şəxsiyyətlərdən, həm də müasir dövrün peşəkar idarəçilərindən kəskin şəkildə fərqləndilər. STM rəhbəri qeyd etmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev dünya tarixinin ən böyük sınaqlarından, bir sıra hallarda "müharibə" adlandırılan çətin imtahanından öz xalqının çıxarılması üçün bütün təhlükələri üzərinə götürməyi, qeyri-standart şəraitdə meydana gələn çağırışları və problemləri həll etməyi bacardı, böhrana qarşı yeni keyfiyyətdə dayanıqlı xarakter, möhkəm iradə göstərdi və buna görə də onun xarizması, nüfuzu xalq içərisində güclü olaraq qalır və bu nüfuz əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və ən başlıcası 2019-cu ildən daha böyük miqyasda həyata keçirilən yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır. Qeyd etmək vacibdir ki, sorğuda Bakı şəhəri, Abşeron, Gəncə –Qazax, Şəki – Zaqatala, Lənkəran, Quba – Xaçmaz, Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə etməklə 5 mərhələ üzrə, ümumilikdə, 4144 respondentin rəyi öyrənilmişdir. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmamışdır.

Şübhəsiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən 17 ildə böyük inkişaf yolu keçmişdir. Bu illərdə baş verən proseslər, əldə olunan nailiyyətlər bir daha təsdiqləyir ki, Prezident İlham Əliyev Azərbaycanı uğurlu gələcəyə aparan, dövlətimizi və xalqımızı dünyada yüksək səviyyədə təmsil edən liderdir. Məlumdur ki, Azərbaycan nümunəvi inkişaf modelinə malik olan bir ölkə kimi dünyada fərqlənir və son illər davamlı inkişaf sayəsində Azərbaycan regionun lider dövləti səviyyəsinə yüksəlmişdir. Bunun nəticəsidir ki, bölgədə Azərbaycanın təşəbbüsü və fəal iştirakı olmadan hər hansı beynəlxalq layihəni reallaşdırmaq mümkün deyil. Ölkəmiz, eyni zamanda, müntəzəm olaraq qlobal miqyasda yeni-yeni əməkdaşlıq platformaları ilə çıxış edir ki, bunun da sayəsində respublikamızın beynəlxalq nüfuzu və təsir imkanları əhəmiyyətli dərəcədə artmışdır. Bununla yanaşı, bu gün münaqişələr, etnik qarşıdurmalar, terrorizm, eləcə də təhlükəli pandemiya dünyanın bəlasına çevrilmişdir. Belə bir şəraitdə Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür, insanların sağlamlığı diqqət mərkəzində saxlanılır. Zahid Orucun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün antiböhran fəaliyyətinin məzmunu – iqtisadi dəstək proqramları, sosial paketlərdən tutmuş səhiyyə infrastrukturunun adaptasiya və modernləşməsinə, yeni klinikaların inşasına qədər həyata keçirilən tədbirlər, məhz, bu məqsədə – vətəndaşın ali dəyər kimi mərkəzdə dayanmasına xidmət edir.

STM hesabatında qeyd edir ki, respondentlərin mütləq əksəriyyətinin Prezidentə olan inam və etimadı yüksək olaraq qalır. Belə ki, rəyi öyrənilənlərin 70 faizi inam və etimadının yüksək olduğunu, 24,6 faiz respondent Prezidentə olan inam və etimadının artdığını açıqlamışdır. Xüsusilə qeyd etmək lazımdır ki, respondentlərin yalnız 1,1 faizi bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiklərini qeyd etmişdir. Prezidentə olan inam və etimadının artdığını bəyan edən 24,6 faiz respondentin rəyində digərləri ilə müqayisədə çox səmərəli qiymətləndirilən fəaliyyət istiqaməti kimi ordu quruculuğu 82 faizlik göstərici ilə ilk pillədə qərarlaşmışdır. Bu respondent seqmentinin müqayisə etibarilə ən az müsbət qiymətləndirdiyi fəaliyyət istiqaməti kimi isə 55,4 faizlik göstərici ilə məhkəmə islahatları çıxış edir. Bununla yanaşı, sorğunun nəticələri aydın göstərdi ki, əhali ordu quruculuğu istiqamətində Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirir. Belə ki, rəyi soruşulanların 70,7 faizi, yəni, mütləq çoxluğu ölkə Prezidentinin ordu quruculuğu istiqamətindəki fəaliyyətini çox səmərəli olduğunu düşünür. STM İdarə Heyəti sədrinin müavini Elşad Mirbəşiroğlunun sözlərinə görə, hətta, inam və etimadın azaldığını bildirən 2,6 faiz respondentin 27,6 faizi də ordu quruculuğu istiqamətindəki fəaliyyəti müsbət qiymətləndirir.

Sorğular nəticəsində həm də məlum olmuşdur ki, Prezidentin kadr siyasəti, ümumilikdə, rəğbətlə qarşılanır. STM-in hesabatında bununla bağlı yazılmışdır ki, Prezidentin həyata keçirdiyi kadr islahatları respondentlərin 53,9 faizi tərəfindən çox səmərəli, 32 faizi tərəfindən isə əsasən səmərəli kimi qiymətləndirilir. 6,5 faiz respondent kadr islahatlarını səmərəli hesab etmir. Prezident tərəfindən həyata keçirilən kadr islahatları da ona olan inam və etimadın artmasında təsirli rol oynamışdır. Elşad Mirbəşiroğlunun sözlərinə görə, dövlət başçısının həyata keçirdiyi kadr islahatlarını çox səmərəli hesab edənlərin 81,2 faizi onun korrupsiya ilə mübarizə sahəsindəki təşəbbüslərini də dəstəklədiyini bildirir. Kadr islahatlarını mənfi qiymətləndirənlərin də əhəmiyyətli hissəsi – 74,3 faizi korrupsiya hallarına yol verən vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin doğru olduğu qənaətindədir. Ölkə başçısının korrupsiya ilə mübarizədə fəaliyyəti 56,1 faiz respondent tərəfindən çox səmərəli, 27,2 faiz respondent tərəfindən isə əsasən səmərəli qiymətləndirilmişdir. Bundan başqa, korrupsiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən fəaliyyətə müsbət münasibət bildirən 56,1 faiz respondentin 36,5 faizi Nazirlər Kabinetinə, 33,4 faizi isə Milli Məclisə etibar etdiyini vurğulamışdır. Respondentlərin 54 faizi təhlükəsizlik və xarici siyasət istiqamətində Prezidentin fəaliyyətini çox səmərəli, 28,9 faizi, əsasən, səmərəli hesab edir. Əks mövqe bildirənlər isə rəyi soruşulanların 6,5 faizini təşkil edir. Sözügedən istiqamətdə cavab verməkdə çətinlik çəkənlərin faiz dərəcəsində yüksəlmə müşahidə olunmuşdur.

Bir sözlə, Sosial Tədqiqatlar Mərkəzinin son analitik hesabatı bir daha təsdiqləyir ki, ötən müddət ərzində ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması sayəsində xalqın Prezident İlham Əliyevə olan inam və etimadı daim yüksək səviyyədə qalır. Əlbəttə, bu amil də xalq – Prezident birliyini daha da sarsılmaz edir və Azərbaycanın qarşısında dayanan müasir çağırışlara adekvat reaksiya göstərilməsində mühüm yol oynayır.

***Hazırladı:***
***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***